**Ədəbiyyatşünaslıq**
***Azərbaycan ədəbiyyatı tarixi***

# Səlim Rəfiq Rəfioğlunun yaradıcılığında Azərbaycan ədəbiyyatının dövrləşdirilmə konsepsiyası

**Ataəmi Mirzəyev**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: ataemi@rambler.ru

**Annotasiya.** Azərbaycan ədəbiyyatının inkişaf tarixinin mərhələlər üzrə öyrənilməsi ədəbiyyatşünaslıqda həmişə diqqət mərkəzində olmuşdur. Müxtəlif dövrlərdə yazılmış ədəbiyyat tarixləri, dərsliklər və tədqiqat əsərlərində ədəbiyyat tarixinin dövrləşdirilməsinə aid fikirlər də öz əksini tapmış, bununla bağlı fərqli təsnifatlar aparılmışdır. Ancaq Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri ilk dəfə elmi şəkildə akademik İsa Həbibbəyli tərəfindən sistemli olaraq izlənilmiş, vahid konsepsiya əsasında dövrləşdirilərək təsnif edilmişdir. Alimin Azərbaycan ədəbiyyatının dövrləşdirliməsi ilə bağlı fikirləri "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" kitabında öz əksini tapmışdır.
Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən sayılan Səlim Rəfiq Rəfioğlunun (1905-1980) 1941-ci ildə çap olunmuş "Azərbaycan ədəbiyyatı – Seçilmiş misralar" adlı kitabının müqəddiməsində ədəbiyyat tarixinin dövrləşdirilməsi ilə bağlı fikirləri də maraqlı olub, həmin dövr üçün aktuallıq kəsb edirdi. Alimin "Azərbaycan ədəbiyyatı tarixi" kitabından iqtibas yolu ilə yazdığı bu müqəddimədən aydın olur ki, o, apardığı təsnifatda tarixilik prinsipini əsas götürmüş, ədəbiyyat tariximizin inkişaf mərhələlərini əsrlər üzrə araşdırmışdır. Ən qədim dövrlərdən XIV əsrə qədər bir zamanı ümumi şəkildə xarakterizə edən Səlim Rəfiq daha sonra XIV əsrdən başlayaraq XX əsrə qədərki ədəbiyyatımızı ardıcıl olaraq əsrlər üzrə dövrləşdirmiş, hər bir əsri ayrı-ayrılıqda özünəməxsus səciyyəvi cəhətləri ilə nəzərdən keçirərək dövrün əsas ədəbi şəxsiyyətləri və aparıcı istiqamətlərini müəyyənləşdirmişdir. Alimin Azərbaycan ədəbiyyatı haqqında bütöv və sistemli biliyə malik bir ədəbiyyatşünas kimi ümumiləşdirmələr apararaq, ədəbiyyat tariximizi əsrlər üzrə dövrləşdirməsi bu gün də öz əhəmiyyətini itirməyən elmi qənaətlər kimi diqqətəlayiqdir.
**Açar sözlər:** Səlim Rəfiq Rəfioğlu, mühacirət ədəbiyyatşünaslığı, ədəbiyyat tarixi, mərhələ, dövrləşdirilmə

**Məqalə tarixçəsi:** göndərilib – 08.09.2022; qəbul edilib – 22.09.2022

# The concept of periodization of Azerbaijani literature in Salim Rafig Rafioglu's creative work

**Ataemi Mirzayev**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: ataemi@rambler.ru

**Abstract.** Studying the development history of Azerbaijani literature by stages has always been the focus of attention in literary studies. Thoughts about the periodization of history of literature were also reflected in literary histories, textbooks, research works written in different periods, in respect to this different classification have been made. However, the development stages of Azerbaijani literature was scientifically traced by academician Isa Habibbeyli for the first time and classified on the basis of one concept. The thoughts of the scholar about periodization of Azerbaijani literature were reflected in the book "Azerbaijani literature: periodization concept and development stages".
The thoughts of Salim Rafig Rafioglu (1905-1980), one of the prominent representative of Azerbaijani emigration literary studies, about the periodization of literary history in the introduction of the book "Azerbaijani literature – Selected verses" published in 1941 were also interesting and were relevant for that period. It is clear from this introduction the author wrote by the way of quotation from the book "The history of Azerbaijani literature" that he based his classification on the principle of historicity and researched the development stages of our literary history by centuries. Salim Rafig generally characterized a period from ancient times to the 14th century and divided into periods our literature from the 14th century to the 20th century consistently; and identified the main literary figures and leading directions of the period by examining each century separately with its own characteristics. Possessing a comprehensive and systematic knowledge of Azerbaijani literature as a literary critic, the scholar divided into periods our literary history by centuries and this is noteworthy in that scientific conclusions have not lost their significance today.
**Keywords:** Salim Rafig Rafioglu, emigration literary studies, history of literature, stage, periodization

**Article history:** received − 08.09.2022; accepted − 22.09.2022

## Giriş / *Introduction*

Ədəbiyyat tarixinin dövrləşdirilməsi zaman-zaman ədəbiyyatşünasların diqqət mərkəzində olmuş, bu barədə bir-birindən fərqlənən müxtəlif baxışlar meydana çıxmışdır. İlkin təzkirələrdən tutmuş, Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabı da daxil olmaqla heç bir əsərdə ədəbiyyat tarixinin dövrləşməsi ilə bağlı xüsusi təsnifat aparılmamış, pərakəndə şəkildə müəyyən fikirlər öz əksini tapmışdır. 1920-1930-cu illərdən etibarən Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi ilə bağlı müxtəlif təşəbbüs və meyarlar formalaşmağa başlamış, bir sıra tədqiqatlarda yeni-yeni fikir və mülahizələr ifadə olunmuşdur. Azərbaycan ədəbiyyatşünaslığı tarixində bu istiqamətdə görülmüş bütün işləri sistemli və ardıcıl şəkildə nəzərdən keçirən akademik İsa Həbibbəyli özünün "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" adlı kitabında Azərbaycan ədəbiyyatının dövrləşdirilməsini tarixi bir zərurət hesab edərək, ədəbiyyat tariximizin inkişaf mərhələlərini ilk dəfə elmi-nəzəri cəhətdən əsaslı şəkildə nəzərdən keçirmiş və hər birinin ayrı-ayrılıqda elmi təsnifatını vermişdir [1].

Azərbaycan ədəbiyyatının keçdiyi inkişaf yolu ilə bağlı mühacirət ədəbiyyatının görkəmli nümayəndələrindən – ədəbiyyatşünas, tənqidçi-publisist kimi tanınan Səlim Rəfiq Rəfioğlunun (1905-1980) da özünəməxsus fikirləri vardır. Mühacirət ədəbiyyatşünaslarının elmi-ədəbi irsi tam şəkildə əldə edilmədiyindən və elmi ictimaiyyətə məlum olmadığından, onların müxtəlif məsələlərlə bağlı elmi fikirləri də bir çox hallarda diqqətdən kənarda qalmışdır. Odur ki, Gəncənin məşhur Rəfibəylilər nəslinə mənsub olan və siyasi səbəblərdən Türkiyədə yaşayıb-yaradan Səlim Rəfiq Rəfioğlunun Azərbaycan ədəbiyyatının keçdiyi tarixi inkişaf mərhələləri ilə bağlı fikirlərini nəzərdən keçirmək maraqlıdır.

## Əsas hissə / *Main Part*

Səlim Rəfiq Rəfioğlu elmi yaradıcılığa İstanbul Universitetində oxuduğu illərdə (1930-1933) başlamışdır. Onun "Son dövr Azəri ədəbiyyatı" adlı ilk məqaləsi 1932-ci ildə Əhməd Cəfəroğlunun baş redaktoru olduğu "Azərbaycan Yurt Bilgisi" adlı dərgidə çap olunmuşdur [2]. Sonralar o, müxtəlif mətbuat orqanlarında elmi, tənqidi və publisist yazılarla çıxış etmişdir. Xüsusilə alimin "Füzuli" dissertasiyası və "Divan ədəbiyyatının məhəlli və ictimai xüsusiyyətləri" adlı tədqiqatı olduqca geniş və zəngin araşdırmaların nəticəsi kimi özünü göstərir [6; 4].

Səlim Rəfiq Rəfioğlunun elmi-ədəbi irsi olduqca zəngin və çoxşaxəlidir. Onun 1941-ci ildə çap edilən "Azərbaycan ədəbiyyatı – Seçilmiş misralar" adlı kitabının sonunda "Müəllifin basılan əsərləri" başlığı altında 2, "Müəllifin basılacaq əsərləri" başlığı altında isə 12 əsərinin adı verilmiş, bəzilərinin məzmunundan da bəhs edilmişdir. "Müəllifin basılacaq əsərləri" siyahısında 12-ci əsər kimi, "Azərbaycan ədəbiyyatı tarixi" adlı kitab qeyd edilir [3, s.109]. Lakin, təəssüf ki, həmin əsər əldə yoxdur. Alimin məlum kitab və məqalələri ilə tanışlıq göstərir ki, Səlim Rəfiq ədəbiyyat tariximizlə bağlı geniş və zəngin elmi-nəzəri məlumatla yanaşı, həm də çoxlu sayda ədəbi məxəz və qaynaqlara bələd bir tədqiqatçı olmuşdur. Şübhəsiz ki, alimin qeyd edilən "Azərbaycan ədəbiyyatı tarixi" kitabı da belə bir zəngin materiallar əsasında yazılmışdır. Səlim Rəfiqin həmin kitabı əldə olmasa da, 1941-ci ildə Bursada nəşr edilmiş "Azərbaycan ədəbiyyatı – Seçilmiş misralar" adlı kitabının "Azərbaycan ədəbiyyatına toplu bir baxış" adlı 20 səhifəlik müqəddiməsinin Azərbaycan ədəbiyyatı tarixi haqqında yazdığı kitabdan götürülmüş icmal xarakterli bir tədqiqat olduğu anlaşılır.

Həcmcə kiçik olan "Azərbaycan ədəbiyyatı – Seçilmiş misralar" kitabı XIII-XIX əsrlər Azərbaycan ədəbiyyatı ilə bağlı tərtib edilmiş antologiyanı xatırladır. Görünür, Səlim Rəfiqin bu kitabın nəşrində əsas məqsədi Türkiyə oxucularını Azərbaycan ədəbiyyatı nümunələri ilə tanış etmək olmuşdur.

Giriş kimi yazılmış "Bir neçə söz"də kitabın tərtibolunma səbəbi və müqəddimə ilə bağlı müəllifin belə bir qeydi vardır: "Azərbaycan ədəbiyyatına dair tərtib etdiyim antolojiləri bəzi səbəblərdən dolayı indiyə qədər nəşr etmədim. Fəqət bu maneəyə rəğmən, şimdilik oxuculara ismi keçən ədəbiyyatdan dərlənmiş *(toplanmış)* bir dəmət *(dəstə)* sunmaq *(təqdim etmək)* istədim. Diləyimin nəticəsi olaraq ortaya çıxan kitaba bir də müqəddimə yazmağı faydalı buldum. Müqəddimənin əsaslarını Azəri ədəbiyyatının tarixi haqqında zəngin kitabiyyata istinadən hazırladığım tədqiqdən iqtibas etdim..." [3, s.2]

Verilən örnəkdən də aydın görünür ki, müəllif bu hissəni Azərbaycan ədəbiyyatı tarixi haqqında yazdığı kitabdan iqtibas etmişdir. Bu müqəddimə, həqiqətən də, Azərbaycan ədəbiyyatı haqqında sistemli bir araşdırma səciyyəsi daşıyır və Səlim Rəfiqin hələlik əldə edilməyən "Azərbaycan ədəbiyyatı tarixi" kitabını yüksək elmi səviyyədə yazılmış bir əsər kimi dəyərləndirməyə əsas verir.

Ən qədim dövrdən XX əsrə qədər bir zamanı əhatə edən müqəddimədən aydın olur ki, müəllif Azərbaycan ədəbiyyatının dövrləşdirilməsini əsas məqsəd kimi götürmüşdür. Səlim Rəfiq ədəbiyyat tariximizin inkişaf mərhələlərinin dövrləşdirilməsi zamanı tarixi prinsipə əsaslan-

mış, bütün təhlil və ümumiləşdirmələri bu aspektdə aparmışdır. Burada ədəbiyyat tariximiz əsrlər üzrə özünəməxsus səciyyəvi cəhətləri ilə nəzərdən keçirilmiş, hər bir dövrün əsas ədəbi siması haqqında müxtəsər məlumat verilmiş, yaradıcılığının aparıcı istiqamətləri müəyyənləşdirilmişdir.

Müqəddimədən aydın olur ki, Səlim Rəfiq Azərbaycan ədəbiyyatının "əski dövrləri" dedikdə ən qədim dövrlərdən VIII əsrə qədərki ədəbiyyatı nəzərdə tutmuşdur: "Azərbaycandakı ədəbiyyatın əski dövrləri olduqca qaranlıqdır. Şimdiyə qədər yalnız Dəvdək ismində bir şair təsbit edilmişdir. Miladi səkkizinci əsrdə yaşamış olan Dəvdək haqqında Karankatvatsidə məlumat vardır" [3, s.3]. Göründüyü kimi, müəllif alban şairi Dəvdəkin VII əsrdə deyil, VIII əsrdə yaşadığını qeyd edir. Bu, həmin dövrdə olan tarixi məlumatla bağlı ola bilər. Əlbəttə, Səlim Rəfiq ədəbiyyat tarixini yazarkən həmin dövrdə elmə məlum olan fakt və mənbələrə əsaslanmışdır. Lakin sonralar üzə çıxan bir sıra yeni-yeni tarixi qaynaqlar və ədəbi məxəzlər həmin dövrü daha əhatəli səciyyələndirməyə əsas verir.

Müəllif daha sonra ərəbdilli ədəbiyyat dövrünə nəzər salmağı lazım bilərək yazır: "...müsəlmanlığın intişarından sonra ortaya çıxan ədəbiyyatı bəhs mövzusu edəcəyik. Bu baxımdan bir kaç əsrlik ərəblər dövrü bizə bir şey ifadə etməz. Mamafih *(bununla bərabər),* etnik vəziyyəti nəzəri etibara alacaq olursaq, ərəb hakimiyyətinin bilxassə son zamanlarında xalq ədəbiyyatının mövcudiyyətini qüvvətlə təxmin edə biliriz. Netəkim "Dədə Qorqud" hekayələrinin miladi XI əsrdə xalq arasında yayılmış olduğunu iddia edənlər vardır" [3, s.3].

Müəllif Səlcuqilər dövrü haqqında da eyni fikirdə olduğunu bir neçə cümlə ilə belə ifadə edir: "Səlcuqilər dövrü haqqında da aşağı-yuxarı eyni şeyləri təkrar edə biliriz. Əldə mövcud vəsaiq bizi Nasir bin Əhməd Bərk kimi sxolastik alimlərdən xəbərdar etməkdədir" [3, s.3].

Səlim Rəfiq daha sonra Atabəylər dövründə fars dilinin dövlət və ədəbiyyat dili olaraq qazandığı şöhrət nəticəsində türk şairlərinin farsca yazmaq məcburiyyətində qaldığını göstərir. Müəllif fikrini davam etdirərək yazır: "Bununla bərabər, Atabəylər dövründə türkcə şeir olmadığı mütləq surətdə iddia edilə bilməz" [3, s.4]. Göründüyü kimi, alim əldə olmasa da, həmin dövrdə farsca ilə yanaşı, ana dilində də şeirlər yazıldığı qənaətindədir.

Alim moğollar dövrü Azərbaycan ədəbiyyatını isə belə səciyyələndirir: "Moğollar dövrü isə yazılı Azəri ədəbiyyatı baxımından olduqca mühümdür. Zira bugünkü vəsiqələrə nəzərən Azərbaycan ədəbiyyatının ilk məhsulları Elxanilər və Cəlairilər zamanına aiddir" [3, s.4].

Əlbəttə, Səlim Rəfiq bu fikirləri söyləyərkən kitabın yazıldığı dövrün məlum elmi faktlarından çıxış edirdi. Odur ki, onun mülahizələrində müəyyən tarixi uyğunsuzluqlar da müşahidə edilə bilər.

Müəllif Elxanilər dövründə təbiət, riyaziyyat, kimya, astronomiya, tarix sahəsində əldə edilən elmi nəticələrə diqqəti yönəltməklə bərabər, həmin dövrdə hətta Elmlər Akademiyasının mövcud olması barədə də məlumat verir.

Səlim Rəfiq Azərbaycan divan ədəbiyyatının yaranması və inkişaf tarixini belə xarakterizə edir: "Azərbaycan divan ədəbiyyatı digər İslami ədəbiyyatların təşəkkül etdiyi şərtlər daxilində vücuda gəlmişdir. Binaənəleyh İslami zehniyyətlə, islam mədəniyyətinin müxtəlif ünsürlərinə, qəza İslami ədəbiyyatın estetik tələqqisinə, əsasa və şəklə aid xüsusiyyətlərinə bu ədəbiyyatla da təsadüf etmək mümkündür. Burada sufilik və hürufilik kimi fikir cərəyanları da mövcuddur. Hətta hürufiliyin bədii ifadəsi ilk dəfə Azəri ədəbiyyatında təcəlli etmişdir. Türklərin divan ədəbiyyatına əlavə etdikləri nəzm şəkillərindən biri də bu ədəbiyyatda ortaya çıxmışdır. Bu da dış baxımından bir yenilik və bir xüsusiyyətdir. Dini-sxolastik bir görüşün ifadəsi olan yazılardan başqa profan şeirin, tərənnüm edilən maddi eşqin ilk nümunələri də bu dövrdə qələmə alınmışdır. Ayrıca burada ümmət zehniyyətinin yanı başında panteist duyğular da gözə çarpmaqdadır... Moğollar dövrü Azəri ədəbiyyatı şeir və sənət baxımından da yüksəkdir. Zira on dördüncü əsrdə ibda əsərləri də ortaya çıxmışdır. Saniyən bu əsr şeirləri və təsirləri ilə bərabər, ədəbi şəxsiyyət halında tarixə intiqal edən böyük simalar yetişdirmişdir" [3, s.5].

Alim Azərbaycan divan şeirinin təsir dairəsinə də toxunaraq yazır: "Bəzi Azəri şairlərin şe-

irlərinə Azərbaycanlı olmayan şairlər tərəfindən nəzirələr yazılması bu ədəbiyyatın əsrlərcə əvvəl geniş bir intişar və təsir sahəsi bulduğunu göstərməkdədir" [3, s.5-6].

Qədim dövr və Azərbaycan divan ədəbiyyatı ilə bağlı belə bir başlanğıcdan sonra Səlim Rəfiq Azərbaycan ədəbiyyatının ayrı-ayrı dövrlərini səciyyələndirir, dövrün tanınmış ədəbi şəxsiyyətləri haqqında yığcam məlumat verir. Alim Elxanilər dövründə (1258-1354) Azərbaycan dilində şeir yazan şairlərin az olduğunu qeyd edərək yazır: "On dördüncü əsrdə Həsənoğlu, Qazı Bürhanəddin, Sultan Əhməd – Əhməd bin Veys və Nəsimi vardır. Mamafih bunlardan yalnız Nəsimi bir dövrü doldurmağa kafidir" [3, s.6]. Göründüyü kimi, Səlim Rəfiq XIV əsri təkcə Nəsimi yaradıcılığı ilə səciyyələndirməklə mümkün olduğunu qeyd edir. Həqiqətən də, Nəsimi irsi həmin dövr ədəbiyyatının bütün inkişaf xüsusiyyətlərini həm mövzu, məzmun və ideya, həm də forma və sənətkarlıq baxımından tam şəkildə özündə birləşdirmişdir. Səlim Rəfiq "...ilhamının genişliyi, sənətdəki səmimiyyəti və şeirdəki qüdrəti etibarilə xüsusiyyət və mümtaziyyət ərz edən böyük bir şairdir" [3, s.6], – deyərək Nəsiminin Azərbaycan ədəbiyyatı tarixindəki mövqeyini müəyyənləşdirir. Daha sonra Nəsiminin faciəli ölümü ilə bağlı xalq arasında olan böyük təsiri vurğulayan alim bu ölümlə bağlı müxtəlif sənətkarlara aid bir neçə poetik örnək təqdim edir.

XV əsr Azərbaycan ədəbiyyatının Qaraqoyunlular və Ağqoyunlular zamanına təsadüf etdiyini yazan Səlim Rəfiq həmin dövrü siyasi, iqtisadi və mədəni baxımdan səciyyələndirir, bir sıra mədəniyyət mərkəzlərinin yenidən canlandığını göstərir. Uzun Həsənin, Sultan Yaqubun elmə, incəsənətə və ədəbiyyata xüsusi diqqət yetirdiyi, eləcə də türkcənin həm xalq dili, həm də ədəbi dil olaraq əhəmiyyətinin genişləndiyi xüsusi vurğulanır. Azərbaycan dilinin yalnız Ağqoyunluların deyil, daha sonra Səfəvi şahlarının saraylarında da böyük qiymət qazandığı qeyd edilir. XV əsr ədəbiyyatını əvvəlki əsrlə müqayisədə inkişaf mərhələsi kimi dəyərləndirən alim bu dövrdə şairlərin çoxluğunun həm dil, həm də nəzmin təkamülünə təsirini də diqqətə çəkir və bununla həmin dövrün XIV əsr ədəbiyyatından fərqləndiyini nəzərə çarpdırır. Dövrün ədəbiyyatını "Bir tərəfdən, vəhdəti-vücud tələqqisi daha fazla yayılmış və tərəfdar qazanmış, digər tərəfdən, Nəsimi təsiri davam etmişdir" [3, s.8], – deyə səciyyələndirən Səlim Rəfiq bu dövrdə əruz vəzni ilə yanaşı, heca vəzninin də işlək olduğunu, əski dördlük şeir şəklindən də az-çox istifadəni diqqətə çəkmişdir. Müəllif belə bir vəziyyəti xalq ədəbiyyatının divan ədəbiyyatına təsiri kimi dəyərləndirmişdir.

XIII-XIV əsrlər ədəbiyyatımıza aid bir sıra məsnəvilər Səlim Rəfiqin kitabı yazdığı dövrdə elm aləminə məlum olmadığından, o, həmin dövrün yox, XV əsr məsnəvilərindən söz açır, bu dövrdə qəzəl və qəsidə ilə yanaşı, məsnəvi formasına da rəğbət göstərildiyini qeyd edir. Müəllif bir çox əsərlərin əldə olmaması səbəbindən əsrin ədəbi mənzərəsini tam verə bilmədiyini göstərir. Sonrakı dövr tədqiqatlarında XIII-XIV əsrlər ədəbiyyatımıza aid bir sıra məsnəvilər tapılaraq tədqiqat obyekti kimi araşdırılmışdır [2].

Səlim Rəfiq daha sonra dövrün söz sənətkarlarını belə sadalayır: "Əsrin bəlli başlı şairləri şunlardır: Şah Qasımül-Ənvar, Xəlil ibn Əhməd, Xəlili, Sultan Yaqub, Məsud, Şah Ömər Rövşəni, Bihudi, Matəmi, Süruri, Haşimi, Hamidi, Hami, Həbibi" [3, s.9].

XV əsrdə xalq ədəbiyyatının və saz şairlərinin varlığına dair qeydlərin olduğunu vurğulayan müəllif Xəlil bin Əhmədin Azərbaycan dilində heca vəzni ilə dördlük şəklində (mani tərzində) yazılmış 55 parçadan ibarət şeirlərini yada salaraq yazır: "Əsasən xalq ədəbiyyatı olmasaydı, Xəlil bin Əhməd bu tərzdə şeirlər yazamazdı" [3, s.9].

Azərbaycan ədəbiyyatının inkişaf tarixini əsrlər üzrə səciyyələndirən Səlim Rəfiq daha sonra XVI əsrin ictimai-siyasi və mədəni mənzərəsini verir, bu əsr ədəbiyyatının Səfəvilər dövrünə təsadüf etdiyini göstərir. Azərbaycan dilinin fars dili ilə müqayisədə daha çox önəm daşıdığı və saray dili kimi işləndiyi qeyd olunur. Müəllif bu əsri belə xarakterizə edir: "On altıncı əsr Azərbaycan ədəbiyyatının altun dövrüdür. Bunu bilxassə böyük şair Füzuli təmin etmişdir. Ədəbiyyat gərək şəkil və gərək əsas baxımdan həm genişlənmiş, həm də yeni bir inkişafa məzhər olmuşdur. Qəzəlin və lirizmin ən parlaq nümunələri bu əsrin malıdır. Füzulinin

sərapa hiss və həyəcandan ibarət şeirləri buna bir misaldır" [3, s.10].

XVI əsrin həm də məsnəvilərlə zəngin olduğunu qeyd edən müəllif Xətayi və Füzulinin məsnəviləri ilə yanaşı, müəllifi məlum olmayan digər "Leyli və Məcnun" məsnəvisini xatırladır. Alim ən gözəl "Leyli və Məcnun" məsnəvisinin yalnız türk ədəbiyyatında deyil, bütün islami ədəbiyyatda XVI əsrdə Azərbaycan sahəsində yarandığını göstərir. Müəllif bu fikri yazarkən, şübhəsiz, Füzulinin "Leyli və Məcnun" məsnəvisini nəzərdə tuturdu.

Bu əsr ədəbiyyatında mərsiyə və məktubların da işlək olduğunu göstərən Səlim Rəfiq təsəvvüf və hürufilikdən başqa, Həzrət Əlini müqəddəsləşdirən və şiəliyi təbliğ edən əsərlərin də qələmə alındığını vurğulayır. Müəllifin bu qeydləri də, heç şübhəsiz, daha çox Füzuli yaradıcılığı ilə bağlıdır. Şairin "Şikayətnamə"si, dini müqəddəslərə həsr etdiyi qəsidələr, eləcə də "Hədiqətüs-süəda" əsəri bu fikirlərin təsdiqi kimi özünü göstərir.

XVI əsr şairlərinin XV əsrə nisbətən daha çox olduğunu nəzərə çarpdıran tədqiqatçı yazır: "Bunlar üzərində burada ayrı-ayrı durmaq imkansız olduğundan yalnız isim kaydilə iktifa edəcəğiz: Bəsiri, Kişvəri, Ləşkəri, Şəmsi, Yusif bəy, Pirqulu bəy, Şahqulu bəy, Süsəni bəy, Salih, Kirami, Fikari, Pənahi, Zəmiri, Zaei, Mir Qədri, Həsiri, Xəzani, Kalayi, Sadıq, Sadiqi, Xəlifə, Həkim Bədii, Mövlana Şahi, Mövlana Əli, Şah Qasım, Niyazi, Hafiz, Xətai, Füzuli, Fəzli, Hüsnü Bağdadi, Zehni Bağdadi... və sairə. Bunlardan bəziləri on beşinci əsrin sonlarında da yaşamışlardır" [3, s.11].

Səlim Rəfiq XVI əsrdə xalq ədəbiyyatının divan ədəbiyyatı üzərindəki təsirini də nəzərə çarpdırmaqla Xətayidən başqa, Şəmsinin də xalq ədəbiyyatından mütəəssir olduğunu qeyd edir, Aşıq Qurbani və Aşıq Abbas Tufarqanlı kimi saz şairlərinin bu dövrdə yaşadığını göstərir.

Daha sonra XVII əsr Azərbaycan ədəbiyyatının ədəbi mənzərəsini verən Səlim Rəfiq Şah Abbasın hakimiyyəti illərinə aid həmin dönəmi Səfəvilərin ən parlaq dövrü hesab edir. Şah Abbas zamanında Azərbaycanın ictimai-siyasi həyatının qısa icmalından sonra tədqiqatçı dövrün elm və fikir həyatına diqqət yetirir, Rızaəddin Xan, M.Mirzə Şirvani, Əli Dağıstani, Əbdürrəhim Şirvani, Şirvani Əbubəkr kimi alim və filosofların adlarını çəkir.

Azərbaycan dilinin XVII əsrdə həm ədəbi, həm xalq-danışıq, həm də saray dili olaraq öz əhəmiyyətini qoruyub saxladığını, rəsmi dil kimi təsir dairəsini genişləndirdiyini qeyd edən Səlim Rəfiq Səfəvi şahlarının bir sıra Avropa ölkələri ilə rəsmi məktublaşmalarının türk dilində olduğunu xatırladır. Eləcə də məşhur alman alimi və səyyahı Adam Oleariusun (1599-1671) öz səyahətnaməsində Şamaxıda olarkən gürcü, erməni, yəhudi, hindli, iranlı və sairənin ana dilləri olduğu halda, türkcə danışdıqları ilə bağlı qeydi də yada salır.

Səlim Rəfiq Övliya Çələbinin (1611-1682) məşhur "Səyahətnamə"sinə istinadən XVII əsrdə Təbrizdə yaşamış Yavəri, Ədhəmi, Mərdan Ağa Xan, Qurbanqulu, Pibaş Ağa, Hüsam Ağa, Əlvənd Ağa kimi bir sıra şairlərin adlarını da çəkir, həyat və yaradıcılığı haqqında heç bir məlumat olmayan bu sənətkarların öz tədqiqini gözlədiyini qeyd edir. Belə bir başlanğıcdan sonra tədqiqatçı XVII əsrin tanınmış ədəbi şəxsləri haqqında məlumata keçir. Öncə bu əsrdə məsnəvilər müəllifi kimi tanınan Məsihi və onun "Vərqa və Gülşa" əsərini xatırladan tədqiqatçı XVII əsrdə də məsnəvi formasının işlək olduğunu vurğulayır. Məlumdur ki, Məsihi "Vərqa və Gülşa" əsərinin sonunda "Danəvü Dam" və "Zənburü Əsəl" kimi digər iki məsnəvisinin adını çəksə də, həmin əsərlər hələlik elm aləminə məlum deyil. Ona görə də Səlim Rəfiq "Vərqa və Gülşa"dan müəllifin üçüncü məsnəvisi kimi söhbət açır [3, s.13].

Tədqiqatçı daha sonra Qövsi Təbrizini əsrin qiymətli şairi kimi təqdim edir və şairin "Hamid kimi xar öldürəcəkdir səni, Qövsi" misrasından çıxış edərək həmin dövrdə Hamid adlı bir şairin də olduğu qənaətinə gəlir və bunun başqa bir Hamid adlı şair olub-olmadığının araşdırılmasını zəruri hesab edir.

Səlim Rəfiq qaynaqlarda II Şah Abbasın vəqanəvisi (hadisələri yazan tarixçisi) Mirzə Tahir Vahidin türk, fars, ərəb və hind dillərində 9000 beytdən ibarət şeiri haqqında olan qeydə də diqqəti cəlb edir. Məlumat üçün bildirək ki, Hüseyn xan Qəzvininin oğlu Mirzə Məhəmməd Tahir Qəzvini "Vəhid" təxəllüsü ilə şeirlər yaz-

mışdır. Onun Berlin Dövlət Kitabxanasının əlyazmalar xəzinəsində saxlanan 487 vərəqdən ibarət "Külliyyat"ı vardır. Həmin əlyazmanın ilk 30 vərəqində şairin Azərbaycan türkcəsində şeirləri yer alır. Vəhid Qəzvinin Azərbaycan-türk divanı 2009-cu ildə Bakıda nəşr edilmişdir [7].

Tədqiqatçı daha sonra XVII əsrin digər söz sənətkarları haqqında yazır: "Eyni zamanda Kahveci Zadə, İsfahanlı Yakina, Şeyxülislam Təbrizi, Baba Muğani, Şah Səfi, Məlik bəy Avcı və Təbrizli Saib əsrin bəlli-başlı şairləridir. Fəqət bütün bunlara rəğmən, on yeddinci əsr ədəbi həyatı on altıncı əsrə nəzərən geridir. Burada Füzuli kimi yüksək şairlər görmiyoruz" [3, s.14].

Səlim Rəfiqin XVII əsr xalq ədəbiyyatı, dastan və saz ustadları haqqında verdiyi məlumatlar da maraq doğurur: "Dastan və hekayələrin *(nağılların)* bu əsrdə xalq arasında intişar etdiyi mühəqqəqdir *(təhqiq olunmuşdur)*. Nitəkim Olearius ta Qorqud haqqındakı rəvayətlərin Azərilər arasında unudulmadığını qeyd etmişdir. Qəza bu əsrdə Aşıq Abdulla kimi saz şairinin bulunması da nəzəri-diqqəti cəlb edər" [3, s.14].

Göründüyü kimi, tədqiqatçı öncə adı çəkilən alman səyyahı Adam Oleariusun səyahətnaməsinə əsasən, XVII əsrdə Dədə Qorqud haqqında rəvayətlərin də xalq arasında yayıldığını qeyd edir.

Beləliklə, ədəbi dövr olaraq XVIII əsrə keçid edən Səlim Rəfiq öncə dövrün ictimai-siyasi şəraitinə nəzər salır. Alim daha sonra Azərbaycan dilinin hətta türk olmayan insanlar arasında da yayıldığını qeyd edərək yazır: "Buna dair bəzi əcnəbi məxəzləri tənvir etməkdədir. On səkkiz və on doqquzuncu əsrlərdə türkcə konuşan gürcülərin miqdarı böyük bir yekun tutmuşdur. Bunlar eyni zamanda türk xalq ədəbiyyatını çox iyi bilirlərdi. Bəzi saz şairlərinin şeirləri bu əsrdə türkcə, fəqət gürcü hərfləri ilə təsbit edilmişdir. Hətta bu əsrdə türkcə şeir yazan erməni şair də (Müəllif burada Sayat Novanı (1712-1795) nəzərdə tutur – *A.M.*) vardır..." [3, s.15].

Səlim Rəfiq XVIII əsr yazılı ədəbiyyatında xalq ədəbiyyatına olan təmayülün geniş vüsətlə bir cərəyan halını aldığını qeyd edərək yazır: "Ədəbiyyatda bir məhəllliləşmə və realite baş göstərdi" [3, s.15]. Başqa sözlə desək, ədəbiyyatda xəlqiləşmə və realistləşmə özünü daha bariz şəkildə büruzə verdi. Tədqiqatçı maddi eşqin tərənnümündən tutmuş müxtəlif yerli və ictimai hadisələrə qədər hər şeyin nəzmin çərçivəsi daxilinə girdiyini göstərsə də, divan ədəbiyyatının təsir və nüfuzunun ortadan qalxmadığını, yenə qəzəl, qəsidə və məsnəvilərin yazıldığını göstərir. Xalq ədəbiyyatının təsiri və xalqa enişi nəticəsində əski ədəbiyyatın təməllərinin sarsıldığını nəzərə çarpdıran Səlim Rəfiq klassik şeir şəkilləri (janrları) içərisində yeni bir ruhun ortaya çıxdığını göstərir. Başqa şəkildə desək, klassik şeir janrlarının özündə də həm məzmun, həm də formaca xəlqiləşmə prosesinin getdiyini qeyd edir.

Tədqiqatçı dövrün söz sənətkarlarını belə xarakterizə edir: "Ağa Məsihdən başqa, Məhəmməd Hüseyn xan Müştaq, Mehdi bəy Şikari, Ağa Bağır Şirvani, Vidadi, Vaqif kimi şəxslər bu əsrin ədəbi məhsullarını vücuda gətirən şairlərdir. Vidadi və bilxassə Vaqifin fəaliyyəti Azəri ədəbiyyatında yeni və parlaq bir mərhələ oldu. Bu əsrdə Nizaməddin Məhəmməd, Seyid Fəttah Mərağı kimi şairlər mərsiyələr yazdılar. Məhəmməd Bakir Xalxalinin alaylı məsnəvisi, Nişat Şirvaninin məsnəvi şəklində yazılmış uzun mənzumələri vardır. Məst Əli Şirvani də səyahət ədəbiyyatına dair gözəl bir örnək vermişdir. Ağa Məsih kimi şairlər də qəzəl vadisində müvəffəqiyyətli parçalar vücuda gətirdilər. Bunlardan başqa, Nami, Talib, Hacı Xudaverdi, Topçu Azərbaycani, Şəkili Nəbi, Nəşət Təbrizi, İbrahim Sabit, Fətəli, Şirvanlı Zülali, *(hicri)* 1220-də vəfat edən Ağa Hüseyn Arif, Şakir Şirvani, Xoca Əbdülqadir kimi şairləri də bu əsr yetişdirmişdir" [3, s.15-16].

Göründüyü kimi, Səlim Rəfiq XVIII əsr şairlərindən ibarət böyük bir siyahı təqdim edir ki, onların bir çoxu haqqında ədəbiyyat tarixlərimizdə məlumat yoxdur. Alimin bu qeydləri, bir növ, gələcək tədqiqatlar üçün ipucu ola bilər.

XVIII əsr saz şairləri üzərində dayanan tədqiqatçı əvvəlki əsrlə nisbətdə bu dövrdə onların çox olduğunu yazır: "Nigaristanlı Aşıq Sadıqdan başqa, şimdilik Aşıq Ərtünü, Qaraca Dağlı-

yı və böyük bir ehtimalla Şikəstə Şirini qeyd edə biliriz” [3, s.16].

XIX əsrdə Azərbaycanın ikiyə bölünməsi ilə həyatda və ədəbiyyatda daim ikiliyin gözə çarpdığını vurğulayan Səlim Rəfiq Qərb mədəniyyətinə təmasın da bu əsrdən başladığını qeyd edir. Milli mətbuatın yaranması, tarix, coğrafiya, musiqi və digər elm sahələrinə aid bir çox əsərlərin yazılması bu dövrün əsas xarakterik xüsusiyyətləri kimi göstərilir. Qərb ədəbiyyatından tərcümələrin meydana çıxması, o cümlədən Azərbaycan dilində olan ədəbi nümunələrin başqa dillərə tərcümə edilməsi XIX əsr üçün səciyyəvi hal sayılırdı. Tədqiqatçı bu dövrdə yanyana yaranan iki – əski və yeni ədəbiyyatın olduğunu göstərir. Bu dövrdə həm divan ədəbiyyatı ənənələrinə uyğun, həm də xalq şeiri üslubunda, heca vəznində şeirlər qələmə alınırdı. Eləcə də bu dövr ictimai həyatın nöqsanlarını, müxtəlif zümrələrin xəta və qüsurlarını göstərən satirik şeirlərin yazılması ilə diqqəti cəlb edirdi.

Səlim Rəfiq XIX əsrdə mərsiyə ədəbiyyatının geniş yayıldığını, Dəxil, Ləli, Rəşid Əfşar, Kərim Şüai, Ahi, Cövri, Əşgiriz, Qumru, Hüzni kimi tanınmış mərsiyəçi şairlərinin yetişdiyini də qeyd edir, bu dövrdə mənzum məktub formasının çoxaldığını da nəzərə çarpdırır. Müəllif Salik, Seyid Əzim Şirvani, Zakir və Natəvan kimi şairlərin əsərləri arasında belə örnəklərin olduğunu qeyd edir. Daha sonra XIX əsrdə məsnəvi formasında yazılan əsərlərə də üstünlük verildiyini göstərən müəllif Bahar Şirvani, İsmayıl bəy Nakam, Mirzə Sadiq Fani, İskəndər Ağa Şair və Xalxali kimi şairlərin adlarını çəkir.

Səlim Rəfiq “On doqquzuncu əsrin şairləri şunlardır” – deyərək 100-dən artıq söz sənətkarının adını verir. Müəllif bu dövrdə Aşıq Pəri, Ağabəyim ağa, Heyran xanım, Kəminə, Xanpikə, Natəvan kimi bir sıra qadın şairlərin də yetişdiyinə diqqəti cəlb edir, bir çox aşıqların adlarını sadalayır.

Göründüyü kimi, Səlim Rəfiq XIX əsr Azərbaycan ədəbiyyatının qısa icmalını verərkən bu dövrdə dramaturgiyanın yaranması və inkişafına toxunmur. Bu, yəqin ki, kitabın poeziyaya həsr edilməsi, daha doğrusu, şeir antologiyası olması ilə bağlıdır. Onu da qeyd edək ki, alimin sözü gedən kitabının sonunda verilən “Müəllifin basılacaq əsərləri” siyahısında 11-ci sırada “Böyük türk ədibi Mirzə Fətəli” monoqrafiyası gəlir. Deməli, Səlim Rəfiq Mirzə Fətəlinin ədəbi irsinə yaxından bələd olsa da, tərtib etdiyi kitabın daha çox şeir antologiyası səciyyəsi daşıdığını nəzərə alaraq müqəddimədə dramaturgiya haqqında söhbət açmamışdır.

Beləcə, XIX əsr də daxil olmaqla Azərbaycan ədəbiyyatının əsrlər üzrə inkişaf mərhələlərinin qısa icmalını verən Səlim Rəfiq daha sonra yenə əsrlər üzrə ədəbi şəxsiyyətlərin əsərlərindən seçilmiş beyt və misralar təqdim edir. Müəllifin verdiyi nümunələr say etibarilə müəlliflərə görə dəyişir. Kitabda toplanmış nümunələr İzzəddin Həsənoğlunun məşhur “Apardı könlümü...” qəzəlindən verilən iki beytlə başlayıb Mirzə Ələkbər Sabirin “Var” rədifli qəzəlindən götürülmüş beytlə yekunlaşır. Bu hissədə Səlim Rəfiq 89 şairin əsərlərindən seçilmiş misra və beytlər təqdim edir. Onu da qeyd edək ki, müəllifin təqdim etdiyi nümunələrin bir çoxu o dövr üçün tam yeni örnəklər idi. Ancaq, təəssüf ki, müəllifin bu kitabı elmi ictimaiyyətə çox da tanış olmadığından Azərbaycan ədəbiyyatşünaslığında klassik irsin tədqiqi və nəşri ilə bağlı araşdırmalarda ona müraciət edilməmişdir. Halbuki kitabda həm Azərbaycan ədəbiyyatının inkişaf dövrləri, həm klassik, həm də aşıq şeiri ilə bağlı bir sıra yeni nümunələr də vardır, eləcə də klassik ədəbiyyata aid mətnlərdə müşahidə edilən bir çox nüsxə fərqlərini buradakı nümunələr əsasında dəqiqləşdirmək də mümkündür.

## **Nəticə / *Conclusion***

Beləliklə, Səlim Rəfiq Rəfioğlunun həm əldə olan elmi əsərləri, həm də “Azərbaycan ədəbiyyatı – Seçilmiş misralar” adlı kitabı ilə tanışlıq göstərir ki, o istər şifahi xalq ədəbiyyatı və aşıq yaradıcılığı, istər klassik və son dövr Azərbaycan ədəbiyyatı ilə bağlı geniş məlumata malik bir tədqiqatçı olmuşdur. Eləcə də alimin ədəbiyyatşünaslığın müxtəlif sahələrinə aid digər

kitab və məqalələri də onun həmin sahələrdə ilk elmi fikir və söz sahibi olduğuna əyani sübut sayıla bilər. Azərbaycan ədəbiyyatı haqqında bütöv və sistemli biliyə, eləcə də dərin məntiqi təfəkkürə, təhliletmə və ümumiləşdirmə qabiliyyətinə malik olan Səlim Rəfiq Rəfioğlu "Azərbaycan ədəbiyyatı – Seçilmiş misralar" kitabının müqəddiməsində qısaca da olsa, kamil bir ədəbiyyatşünas kimi, ədəbiyyat tariximizin keçdiyi inkişaf yolunu sistemli şəkildə izləmiş, onun inkişaf meyillərini üzə çıxararaq hər bir dövrün ədəbi mənzərəsini vermişdir. Alimin belə bir təsnifatı ədəbiyyat tariximizin dövrləşdirilməsi sahəsində atılmış addımlardan biri kimi, olduqca maraq doğurur. Bu baxımdan onun ədəbiyyatşünaslıq irsi geniş şəkildə öyrənilməli, əldə olan əsərləri nəşr edilərək elmi ictimaiyyətə çatdırılmalıdır. Alimin yaradıcılığı ilə tanışlıq göstərir ki, zaman-zaman bu elmi irsə müraciət edilməli, onun hərtərəfli öyrənilməsi sahəsində tədqiqatlar aparılmalı, ən əsası isə həmin elmi irs bütünlüklə tapılıb üzə çıxarılmalı və nəşr olunmalıdır.

**Ədəbiyyat / *References***


1. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019.
2. Mirzəyev A. Azərbaycan epik şeirinin təşəkkül dövrü. Bakı: Elm və təhsil, 2016.
3. Refi'oğlu S.R. Azerbaycan edebiyyatı – Seçilmiş misralar. Bursa: Emek Basımevi, 1941.
4. Refi'oğlu S.R. Divan edebiyatının mahalli ve ictimai motifleri. İstanbul, 1948-1953.
5. Refi'oğlu S.R. Son Devr Azeri Edebiyatı. Azerbaycan Yurt Bilgisi. İstanbul, Ocak 1932.
6. Rəfioğlu S.R. Füzuli (nəşrə hazırlayan: Ataəmi Mirzəyev). Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası, III cild. Bakı: Elm və təhsil, 2019.
7. Vəhid Qəzvini. Divan (nəşrə hazırlayanlar: P.Kərimov, A.Ramazanov). Bakı: Nurlan, 2009.


## Концепция периодизации азербайджанской литературы в творчестве Салим Рафига Рафиоглу


**Атаами Мирзоев**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: ataemi@rambler.ru



**Резюме.** Поэтапное изучение истории развития азербайджанской литературы всегда было в центре внимания литературоведения. Суждения относительно периодизации истории литературы имеют место в написанных в различные периоды исследованиях по истории литературы, учебниках, где приводились соответствующие различные классификации. Но впервые системно этапы развития азербайджанской литературы в научном плане были изучены академиком Иса Габиббейли, который составил классификацию их периодизации на основе единой концепции. Суждения учёного относительно периодизации азербайджанской литературы отражены в его книге «Азербайджанская литература: концепция периодизации и этапы развития».

В изданной в 1941 году книге «Азербайджанская литература – избранные строки» известного представителя эмигрантского литературоведения Салим Рафига Рафиоглу (1905-1980) вызывают интерес приведённые во введении актуальные для того времени рассуждения автора относительно периодизации истории литературы. В данном введении автором приводятся извлечения из его книги «История азербайджанской литературы» и поясняется,

что приводимая им классификация базируется на принципе историзма, а этапы развития истории литературы исследованы согласно векам. Приведя общую характеристику периода с древней литературы до XIV в., Салим Рафиг проводит последовательную периодизацию нашей литературы с XIV до XX в., характеризуя особенности каждого из них в отдельности, даёт оценку значительным литературным личностям и определяет основные направления каждого века.

Периодизация истории нашей литературы по векам литературоведа как учёного, обладающего целостными и системными знаниями об азербайджанской литературе, и его обобщённые заключения, не потеряли своего значения, и сегодня заслуживают внимания.

**Ключевые слова:** Салим Рафиг Рафиоглу, эмигрантское литературоведение, история литературы, этап, периодизация